Yaxın-uzaq sorağımız

***Görkəmli yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Hidayət Orucovun sovet dövründə Qərbi Azərbaycanda yaşamış soydaşlarımızın bəlalı taleyini iri planda əks etdirən "Burdan min atlı keçdi" publisistik düşüncələri canlı tarixi qaynaq və ciddi xatirə ədəbiyyatı kimi ölkəmizdə geniş populyarlıq qazanmışdır. Ədib Qırğızıstanda Azərbaycan Respublikasının səfiri işlədiyi ötən illərdə ölkənin ədəbi-mədəni mühiti və burada çalışan Türkiyə ziyalıları ilə sıx əlaqədə olduğundan həmin əsərə qardaş ölkədə, eləcə də türkdilli auditoriyada da böyük maraq yaranmışdır.***

# "Burdan min atlı keçdi" Bişkekdə türk dilində nəşr olunub

Bişkekdəki Qırğızıstan–Türkiyə Manas Universiteti "Burdan min atlı keçdi" əsərinə olan bu marağı cavablandırmaq və azərbaycanlı ədibin dəyərli ədəbi-publisistik memuarını daha geniş oxucu dairəsinə çatdırmaq üçün onu türk dilinə çevirərək bugünlərdə nəfis kitab şəklində nəşr etdirmişdir. "Burdan min atlı keçdi" kitabına yazdığı "Ön söz"də Manas Universitetinin rektoru, qədim tarix və türk mədəniyyəti üzrə nüfuzlu alim, professor Alparslan Ceylan bildirib ki, bu əsəri oxuyanlar oradan Azərbaycanın son 50 illik siyasi tarixinə, regionun coğrafi tarixindən düşüncə və ədəbiyyat tarixinə qədər xeyli məlumat ala bilərlər. Əsərin adı onun ruhunun ifadəsidir. Türkün həyatında at müstəsna rol oynayıb və yaşadığı çətinlikləri onunla yaşayıb, onunla keçib.

Azərbaycan oxucusuna kifayət qədər tanış olan, ötən əsrin 60-cı illərindən bu günə qədər xalqımızın çıxdığı sınaqlardan, bu kontekstdə ancaq ölkəmizdə və Ermənistanda deyil, bütün bölgədə gedən proseslərdən bəhs edən "Burdan min atlı keçdi" memuarının bədii və tarixi dəyərindən söz açan rektor daha sonra yazıb: "Memuar səmimi dillə yazıldığından ancaq ədəbi deyil, hadisələrin baş verdiyi dövrün mənzərəsini yaradır və bununla həm də dəyərli tarixi qaynağa çevrilir".

Əsərdə Azərbaycan xalqının taleyüklü məqamlarında onun yanında olan, şəxsi nüfuzuna, siyasi çəkisinə görə yalnız Sovet İttifaqında deyil, dünyada nüfuzlu siyasətçilərdən və dövlət xadimlərindən biri kimi qəbul edilən Heydər Əliyevin xidmətlərinin bütün miqyası ilə görünməsi faktına toxunan tarixçi bunu azman tarixi şəxsiyyətlərin missiyasında zəruri hal sayır.

Kitabda yer alan "İrəvana yeddi məktub" fəslində verilən o məktubların hər birində ötən əsrin 60-cı illərinin sonlarından 1982-ci ilədək müddətdə ümummilli lider Heydər Əliyevin Qərbi Azərbaycanda, sonradan Ermənistan SSR adlanan nominal dövlətdə yaşayan soydaşlarımızla bağlı narahatlığı, şəxsi nüfuzundan istifadə edərək onların sosial həyatının yaxşılaşdırılması istiqamətindəki fəaliyyəti əks olunur. Memuarda Qərbi Azərbaycanda bu ərazilərin aborigen əhalisinə qarşı ermənilərin millətçiliklə zəhərlənməsinin hansı fəsadlar




yarada biləcəyi də vurğulanır və bununla bağlı konkret faktlar xatırlanır.

Əsərdə böyük bir xalqın 100 ildən bəri gəldiyi, son 60 ildə yazıçı-dramaturq Hidayətin də içində olduğu hadisələr faktlarla sadalanır, öz lideri ətrafında birləşən xalqın onun üçün hazırlanan fəlakət ssenarisindən necə çıxdığı təqdim olunur. 2020-ci ildə başlayan və 44 gün davam edən Vətən müharibəsində qazanılan Zəfər məhz bu kontekstdən qəbul edilir. 30 ilə yaxın müddətdə Ermənistanın işğalda saxladığı Şuşanın azad edilməsi ilə bağlı xəbəri xalqına Fəxri xiyabandan, ümummilli lider Heydər Əliyevin məzarı önündən çatdıran Prezident, Ali Baş Komandan İlham Əliyevin kitabda əksini tapmış tarixi çıxışı bunu bir daha sübut edir.

***R.TAHİR, "Xalq qəzeti"***